***Qızılbaş qoşunları Şiraz yoluna çıxmışdı. Hüseyn Lələ bəyin verdiyi məlumata görə, Şirazda olan Sultan Murad təşvişə düşmüş, az-çox hələ də onun fitnələrinə uyan əyalət başçılarına məktub yazıb onlardan kömək istəyirdi. Bu da onu göstərirdi ki, əslində, Sultan Muradın ümidi üzülməkdə, imkanları tükənməkdədir. Şah İsmayıl çox istəyirdi ki, Sultan Murad haraya istəyir cəhənnəm olub getsin, təki şahın əlini onun murdan qanına bulamasın.***

***Hökmdar həqiqətən Sultan Murada nifrət edirdi. Çünki o, ağbirçək bibisi Məryəm bəyimi özünün çirkin əməllərinə qarışdırmışdı. Bir növ ağbirçək qadının aldadılıb onun yanına göndərilməsi özü də bağışlanmaz bir təhqir idi. Şah onu da bilirdi ki, bütün bunlara baxmayaraq, Məryəm xanım da istəmirdi, o, Sultan Muradı qətlə yetirsin. Bu yandan da Qəmbər ağanın faciəli ölümü şahın yadından çıxmırdı. Bəlkə də şah bütün bunların hamısını müharibənin, siyasətin ayağına yazıb keçərdi. Amma o, sevgilisi Taclı Bəyimin dedikləri haqqında da düşünürdü. Axı nə qədər qan tökmək olar?! Qan axı insanın özünü də tutar. Bütün bunların hamısını xəyalında var-gəl edərkən yenə də sevgilisi Taclı Bəyimin dediklərini daha üstün bilirdi.***

***Şah İsmayıl səfərə çıxalı, yəni neçə vaxtdan bəri Taclı bəyimin üzü gülməmişdi. Hər gün sevgilisi ilə görüşdüyü vaxt qəlbi həyəcanla döyünürdü. Nə qədər bilsə də aşiqi şəhərdə deyil, Təbrizdən çox-çox uzaqlardadır, yenə də üzgülənir, gözəllik libasını geyinib Səkkiz Cənnət sarayının şahgüzarlığına çıxırdı. Ona elə gəlirdi ki, bu dəm İsmayıl qızılgül kollarının arasından çıxacaq. Onu görən kimi qollarını açacaq, sevgilisini ağuşuna çağıracaq. O da min bir həvəslə eşqinin qanadları ilə özünü uça-uça İsmayılın qolları arasına atacaqdır. İsmayıl da onu nəvazişlə öpüb-oxşayacaq, ona könlünü ovunduran ən xoş sözlər deyəcək. Hətta xəyali ilə Şah İsmayılın ona nə dediyini, özünün nə cavab verdiyini də təsəvvür edirdi.***

***Bu gün də eləydi. Özünü bağçaya yetirib bir vaxt şahla ilk görüşünün həyəcanlarını yaşadığı dağdağan ağacının dibində dayandı. Taclı Bəyim həmişə bura gələndə sanki ilk görüşün həyəcanlarını təzədən yaşayırdı. Amma bu dəfə xəyalı onu səfərdən qayıdan Şah İsmayılla görüşdürdü:***



***Hüseynbala MİRƏLƏMOV***

# ÇALDIRANA GEDƏN YOL

## *romandan səhifələr*

***(Əvvəli ötən saylarımızda)***

-Niyə gözlərimə baxmırsan Taclı?

-Qorxuram ki, gözlərim səndən incik düşdüyümü məndən izinsiz bəyan eləsin.

-Sən niyə incik olmalısan? Axı özün mənə xeyir-dua vermişdin səfər üçün.

-Çünki sən gedəli mənim bir gecəm də arxayın keçməyib, gecələr səhərəcən gözlərim yumulmayıb.

-Bilirəm çox həsrət çəkmisən, sən unutma ki, sənin çəkdiklərin qədər, bəlkə, səndən də artıq o həsrəti mən də çəkmişəm.

- Bəs onda niyə bir xəbər göndərmirdin? Bilmirdinmiki sevgilisi müharibədə olanın ürəyində yağ olmaz.

- Məni müharibələrdə Allahım qoruyur, mən hər vaxt Uca Tanrıya güvənmişəm.

- Sən də onu bil ki, mən şahın bəlalardan hifzi üçün gecə-gündüz Tanrıya dua eləmişəm.

- Bilirəm Taclı, bu qanlı-qadalı günlərdə Tanrının mənə yar olması əbəs deyil, Allah sənin kimi bir gözəlin gözlərini yaşlı qoymazdı axı.

- Yaxşı, indi sən yenəmi məni tək və kimsəsiz qoyub gedəcəksən?

- Bundan sonra sən hər vaxt mənimlə olacaqsan. Onu da bil ki, mən harda olmuşam sənin varlığını öz canımda hiss etmişəm. Elə məni bu qələbələrə gətirib çatdıran da sənin bu varlığına inamım olub.

Taclı devikmiş halda xəyaldan ayıldı. Birdən ona elə gəldi ki, şah onun yanındaydı. Bəs necə oldu ki, yoxa çəkildi? Güllərin arasına baş təpdi. Hər yanı yoxladı, təzəcə açılmış qönçələri qoxladı ki, bəlkə şahın qoxusunu hiss edər.

Divanə kimi bağçanın dörd tərəfini gəzdi, fəqət heç kim yox idi. Bu vaxt sarayda nəsə bir səs-küy qopdu.

-Gəldilər, gəldilər... sözlərini Taclı aydın eşitdi.

Taclı həyəcanını boğa bilmədi. Iki-üç addım saray tərəfə atıb elə yerindəcə qışqırdı:

-Kim gəldi, hardan gəldi?

Bu vaxt anası Gülnaz Bəyim ağacların arasından çıxıb onun qarşısında durdu.

-Nə olub, ay qızım, nədən belə həyəcanlısan?

-Bilmirəm, dedilər ki, kimsə gəlib.

-Gəl bəri özünü ələ al, bura saraydır. Gündə nə qədər adam gəlib-gedir.

Taclı Bəyim anasının qoluna girdi. Anası hiss elədi ki, qız lap heydən düşüb. Onlar Səkkiz Cənnət sarayının hələ də kəsilməyən hay-küy olan tərəfinə getdilər.

Demək olar ki, Şah İsmayıldan sonra Təbrizdə qalmış bütün divan adamları, saray sakinləri burada idi. Sarayın hərbi keşikçilər dəstəsi müsəlləh olaraq darvazanın qabağında nizamla dayanmışdı.

Atlı dəstəsinin qabağı açıldı. Çox da böyük olmayan qoşun dəstəsinin önündə İbrahim Mirzə dayanmışdı. Saray başçısı onun qarşısına çıxdı, təzim elədi. Ibrahim Mirzə atdan düşüb hamı ilə salamlaşdı. Gözləri anasını axtardı. Bu vaxt özünü yetirən Aləmşah Bəyim qollarını açıb oğlunu qucaqladı.

- Sənə qurban olum, ay oğul, qardaşından da bir xəbər de.

- Heç nədən nigaran qalma, ana, qardaşım da sağ-salamatdır. Bu günlərdə bütün həsrətlilər bir-birinə qovuşar, sən də oğluna.

İbrahim Mirzə bunu deyəndə gözləri Taclı bəyimi gəzdi. Taclı bəyim anasının yanına qısılmış bir az da rəngi ağarmışdı. Deyəsən, o, sevgilisinin gəlməməyindən pərişan idi. Utanırdı ki, qabağa yeriyib İbrahim Mirzəni ziyarət eləsin.

Amma İbrahim Mirzə arif adam idi. Özü yaxşı bilirdi ki, saray adamlarından kim kimi gözləyir. Ona görə də birinci Taclı bəyimə yaxınlaşmadı. İlk olaraq bacısı ilə görüşdü. Bayram bəyin əhvalı haqqında ona xəbər dedi. Bayram bəyin göndərdiyi hədiyyəni də çatdırdı. Sonra digər əmirlərin əhli-əyalı ilə görüşdü. Kimin hədiyyəsi var idisə, yetirdi. Kimin ərzi-halı vardı çatdırdı. Nəhayət, bayaqdan bəri dörd gözlə onu izləyən Taclı Bəyimə və anasına yaxınlaşdı. Onlarla da səmimi görüşdü. Əbdi bəyin sağ-salamat olduğunu dedi. Gülnaz xanıma da Əbdi bəyin adından hədiyyələr təqdim etdi. Birdən nəsə bükülü, kiçik bir bağlamanı götürüb Taclı Bəyimə uzatdı:

- Bu da sənə çatar, - dedi.

- Kimdən, hardandır? - Taclı heç özü də bilmədi ki, sualı nə üçün verdi. İbrahim Mirzə güldü. Ancaq sözünü də saxlamadı. Taclı Bəyimi süzüb bir az da onu intizarda qoyaraq, qısa sükutdan sonra buyurdu:

- Sən kimi gözləyirdinsə, ondandır, - dedi.

Taclı bağlamanı alıb adamların arasından çıxdı. Özünü otağına yetirib bu kiçik bağlamanı əlləri əsə-əsə açdı. Qəribə bir müşk ətri sanki onu bihuş elədi. Həqiqətən bağlamanın içində ətri aləmi başına götürən müşk var idi. Adına layiq boyunbağı da, sırğalar da öz yerində. Amma bunların heç birisi onun gözlədiyi deyildi. O, həyəcanla bağlamanın içində olan kağızı açdı. Şah İsmayılın öz xəttini tanıdı. Şah yazmışdı: «Gözlərimin işığı Taclı, bu məktub sənə yetəndə mən yəqin ki, Şirazda olacağam. Sənin duaların sayəsində Tanrı Qızılbaş qoşununu yenilməz elədi. Bir-birinin arxasınca qazandığımız qələbələr səltənətimizin əbədi olacağına təminatdır. Amma bunların hamısından vacib olan odur ki, hər döyüşdə sən mənim ruhumda, qəlbimdə olmusan, məni qələbəyə ruhlandırmısan. Düşünürəm ki, mən səninlə birgə döyüşmüşəm. İnşallah, yaxın günlərdə Şiraza yetərik. Mən İbrahim Mirzəyə tapşırmışam, əmirlərin ailələrinə də yetirsin. Kim istəyir öz əzizlərilə görüşmək üçün Şiraza gələ bilər. Gözlərimin işığı, onu bil ki, əgər səni gələnlərin arasında görməsəm, gözlərimə qaranlıq çökər, dünya mənə dar olar. Onda bütün vuruşlarım da, qələbələrim də dəyərini itirər. Tezliklə həsrətimizə son qoyulacaq, mənə inan. Elə indicə ruhuma, varlığıma dolmuş, sənin eşqinə yazdığım qəzəli də bu məktubumun sonuna əlavə edirəm.

Dilbəra, gözdən cəmalın bir nəfəs dur olmasun,
Yaşlu çeşmimdə yüzündən ayru heç nur olmasun.

Ta ki, eşqinlən sənin məmur olubdur dil evi,
Eşqin ol biranədən bir ləhzə məzur olmasun.

Əbri-naysan ta cəmalın gülşəninə su verup,
Qətreyi-yaşimdən özgə anda yağmur olmasun.

Ta ki, səndən qyru düşdüm, görmədim səbru qərar,
Hiç aşiq dilbərindən zaru məhcur olmasun.

Ta səni sevdi Xətayi, oldu dastan aləmə,
Kimsənə anın təki eşqində məşhur olmasun.

Əzizim, gözlərimin işığı, heç nədən nigaran qalma. Biz haqqın yolundayıq. Tanrı da haqqı olanları heç vaxt nəzərindən kənarda qoymaz. Sənin İsmayılın, Şiraz yolu».

Taclı məktubu oxudu. Bir tərəfdən möcüzəli müşk ətri, bir tərəfdən də sevgilisinin qəlbinin atəşilə yazdığı sözlər sanki onu bihuş etmişdi, havalanmışdı. Xəyalı gah Şiraz yoluna uçur, gah da, elə həmin andaca pərvazlanıb geriyə qayıdır, gözlərilə, nəzərlərilə sevgilisinin göndərdiyi hədiyyələri öpüb-oxşayırdı. Ona görə öpmürdü ki, bu hədiyyələr qiymətlidir, yox, nəzərləri doymurdu bu hədiyyələrdən. Çünki bu hədiyyələrə onun sevgilisinin əli dəymişdi. Sevgilisi min bir duyğu ilə bu hədiyyələri ayırmış, Taclıya hansının yaraşdığını düşünmüş, bəlkə də, min bir xəzinə içindən Taclını sevindirəcək olanları seçmişdi.

İndi Taclıya bir şey aydın idi ki, o, tezliklə öz sevgilisinə qovuşacaq. Ancaq bu tezliklə deyilənin nə vaxt, necə olacağını hələ bilmirdi. Hələ neçə gecə sevgilisinin həsrətilə günlərin ötməsini, gecələrin keçməsini gözləyəcəkdi.

...Bu vaxt Şah İsmayıl Şiraz yolunda idi. O, qardaşı İbrahim Mirzəni Təbrizə göndərib saray əhlinin ailələrini gətirməyi tapşırsa da hələ nigarançılığı ötməmişdi. Çünki Sultan Murad hələ də müqavimət göstərmək fikrində idi. Yollarda hər hansı fəsadın baş verməməsi üçün qardaşına kifayət qədər qüvvə ayırmışdı. Halvaçı oğlu da yəqin ki, artıq Şiraza çatmış Mənsur bəyin ailəsinin taleyi ilə bağlı tapşırığı yerinə yetirmişdi. Düzdür, şah buna inanırdı. Çünki Halvaçıoğlu belə çevik əməliyyatların ustası idi.

***(Davamı var)***